Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası
















# Azərbaycanın Sənətkarlıq paytaxtları

(Şəki, İsmayıllı, Quba, Göygöl, Abşeron

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycanın Sənətkarlıq paytaxtları

(Şəki, İsmayıllı, Quba, Göygöl, Abşeron)

**Respublika Uşaq kitabxanaları üçün tövsiyə biblioqrafiyası**

**Bakı-2017**

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul**: **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanın sənətkarlıq paytaxtları:** (Şəki, İsmayıllı, Quba, Göygöl, Abşeron) tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 30 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Azərbaycan xalqının qədim və rəngarəng qeyri-maddi mədəni irsi minilliklər boyu millətin mentalitetini və şüurunu formalaşdıran əsas mənbələrdən biri olmaqla xalq yaradıcılığının nailiyyətlərini özündə ehtiva edən unikal bəşəri fenomendir. Dünyanın qabaqcıl ölkələrinin mədəniyyət siyasəti sahəsindəki təcrübələri nəzərə alınmaqla, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycanın qeyri-maddi mədəni irsinin (diyarşünaslıq, folklor, sənətkarlıq) qorunması və dəstəklənməsi istiqamətində aparılan islahatlara start verilib.

Belə ki, Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" proqramının əsas məqsədləri regionlarda müvafiq tədbirlərin təşkil olunması vasitəsilə xalq yaradıcılığının təşviqinə, tarazlı və davamlı regional sosial-iqtisadi inkişafa töhfə vermək idi.

Proqramın icrası ilə əlaqədar diyarşünaslıq, folklor və sənətkarlıq nominasiyaları üzrə daxil olmuş təkliflər namizəd şəhərlərin ümumi hazırlığı, tarixi ənənələri və digər amillər nəzərə alınmaqla təhlil edilir. Paytaxt elan olunan bölgələrdə il ərzində milli folklor ustaları və kollektivlərinin çıxışları təmin edilmiş, sənətkarların əl işlərindən ibarət sərgilər təşkil olunmuş, daxili və xarici turizmin inkişafı istiqamətində müxtəlif layihələr reallaşdırılmışdır.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **Azərbaycanın sənətkarlıq paytaxtları:** (Şəki, İsmayıllı, Quba, Göygöl, Abşeron) adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə

ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** info@clb.az

# GİRİŞ




Tarixçi alimlərin hesablamalarına görə, 2700 ilə yaxın yaşı olan dağlar diyarı Şəki Baş Qafqaz sıra dağlarının cənub ətəklərinin Qanıq-Əyriçay dərəsi ilə birləşdiyi yerdə, təlatümlü selləri ilə məşhur olan Kiş çayının sol sahilində yerləşir. 1772-ci ildə Kiş çayından gələn güclü sel Şəkinin bir hissəsini dağıtmış, o vaxtdan etibarən şəhər bir qədər şərqə çəkilmiş, Nuxa deyilən ərazidə inkişaf etməyə başlamışdır. 1968-ci ildən isə şəhərin qədim adı bərpa olunaraq Şəki adlandırılmışdır. Tarix boyu bu dağlar diyarını məşhurlaşdıran, tanıtdıran onun füsunkar təbii gözəllikləri ilə yanaşı, həm də adı dillər əzbərinə çevrilmiş sənətkarları olub. Memarlıq, daşoyma, taxtaoyma, dulusçuluq, dəmirçilik, misgərlik, zərgərlik, ipəkçilik, papaqçılıq, nalbəndlik, həmçinin şəbəkəçilik sənəti ilə Şəkinin şan-şöhrəti çox ellərə, çox ölkələrə yayılıb. Hələ Şəkinin ləziz yeməkləri, pitisi, halvası, növbənöv şirniyyatı.

İllər ötdükcə sənətkarlar öz sənət sirlərini, qazandıqları təcrübəni nəsildən-nəsilə ötürərək bu günümüzə qədər yaşatmışlar. Şəki sənətkarlarının istehsal etdikləri məhsullar yerli əhalinin tələbatını ödəməklə yanaşı, xarici ölkə bazarlarına da yol tapıb.

Şəkinin tərəqqisi həm də sənətkarlığın inkişafı ilə şərtlənirdi. Sənət, sənətkarlıq inkişaf etdikcə əhalinin gün-güzəranı yaxşılaşır, yeni-yeni karvansaralar tikilir, xalqlar və ölkələlər arasında ticarət

əlaqələri formalaşırdı. Bu isə əhalinin say artımına da müsbət təsir edirdi. Tarixi araşdırmalara görə, Şəkidə hər sənət növü bir məhəllədə yerləşib və məhəllə də həmin sənət növünün, sənət sahəsinin adi ilə tanınıb. Şəhər inkişaf etdikcə yeni həyata uyğun bir çox yeni sənət sahələri də yaranıb və onların bir çoxu indi də uğurla inkişaf etdirilir.

Sevindirici haldır ki, ölkəmizdə mədəni irsin qorunub saxlanılmasına, xalqımızın zəngin mədəniyyətinin təbliğinə dövlət səviyyəsində yetərincə diqqət yetirilir. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları da mədəni irsin qorunub saxlanılması baxımından böyük əhəmiyyətə malikdir. Məhz Prezident İlham Əliyevin, həmçinin Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısının nəticəsidir ki, muğamımız, aşıq sənətimiz və Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

2007-ci ildə ildə Şəkidə ilk dəfə olaraq "Sənətkarlar günü" bayramı keçirildi. Tarixən mövcud olan sənət sahələrinin qorunub saxlanılması, yaddan çıxmaqda olan bir çox sənət növlərinin bərpa edilməsi, həmçinin turizmin inkişafı baxımından belə tədbirlərin böyük əhəmiyyəti vardır. Təsadüfi deyildir ki, "Sənətkarlar günü" bayramında bir çox qonaqlar, o cümlədən xarici dövlətlərin ölkəmizdəki səfirləri də iştirak edirdi. Onlar da bənzərsiz Şəki sənətkarlıq nümunələrinə heyranlıqlarını gizlətmirdilər. Belə bayram tədbirləri mədəni irsimizin təbliği ilə yanaşı, ölkələr arasında sülh, dostluq və qardaşlıq münasibətlərinin inkişafına da müsbət təsir edir.

2010-cu ilin fevral ayında Respublika Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən "Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı -2010" elan olunması şəkililəri daha da qürurlandırıb.

Qədimlərdə Şəki sənətkarlığının sahələri daha çox olub: dəmirçi, silahsaz, misgər, zərgər, dulusçu, dülgər, xarrat, şəbəkəçi, şərbaf, təkəlduz, boyaqçı, dabbaq, kürkçü, papaqçı, başmaqçı, sərrac,

halvaçı və sair sənətlərin yaranıb inkişaf etməsi həm də Şəkinin nəqliyyat yollarından uzaq olması ilə şərtlənib. Tarixi mənbələrdən aydın olur ki, 1848-ci ildə Şəki əhalisinin təkcə geyim və bəzək ehtiyaclarını ödəmək üçün şəhərdə 235 papaqçı, 178 dabbaq, 147 başmaqçı, 154 dərzi, 82 şəridçi, 41 gümüşbənd çalışırmış. Bu sənətkarlar Şəki əhalisi ilə yanaşı, qonşu əyalətlərdən gələn müştərilərin də sifarişlərini yerinə yetirərmiş.



Şəkinin əlverişli təbii şəraiti insanların həyatının firavanlaşmasına müsbət təsir edib. Digər tərəfdən də mövcud təbii sərvətlər sənət istehsalının yaranmasına və inkişafına təkan verib. Yabanı lifli bitkilər, yun, qəzil, ipək, gön, dəri, ağac, gil, mineral və nəbati boyaqlar sənətkarlar üçün başlıca xammal hesab olunub. Ancaq sənətkarlığın inkişafında əsas şərt insanların peşələrini kamil öyrənmələri və fədakarlıqları olub. Dulusçu da, papaqçı da, silahsaz da, halvaçı, şirniyyatçı və digər sənət sahiblərinin hər biri də çalışıb ki, əlindən zay məhsul çıxmasın, qapısını döyən bir də döysün. Ustalar bu keyfiyyətləri zaman-zaman şagirdlərinə də aşılayıblar. Həmin zamanlarda rəqabət də çox güclü olub. Hansısa məhəllədən müştərinin narazı getməsi, bütün məhəllədə söz-söhbətə səbəb olur, müştərini incidən papaqçı, dərzi və ya nalbənd

əməlli-başlı qınaq mənbəyinə çevrilərdi. Həmin ustaya bu münasibəti salam-kəlamda da hiss etdirərdilər, ta o vaxta qədər ki, incidilən müştəri geri çağrılıb könlü alınsın. Məhz bu xüsusiyyətlər, peşəkar tələblərə, həmçinin usta - müştəri münasibətlərinin dürüstlüyünə görə, bütün sənət sahələri daha yüksək səviyyədə inkişaf edirdi. Elə buna görə də əhalinin təsərrüfat və məişət ehtiyaclarını ödəmək üçün sənətkar dükanlarının sayı durmadan artırdı. Maraqlı məqamlardan biri də budur ki, qədimlərdə silahsazlar kənardan gətirilmə poladla yanaşı, elə Şəkinin özündə də xüsusi üsulla polad əldə etməyi bacarıblar. Ancaq soyuq silah istehsalının aradan çıxması, ucuz Rusiya və Avropa poladı idxalının artması ilə əlaqədar yerli dəmirçilərə xas polad hazırlama texnologiyasının sirləri də tədricən unudulmuşdur.

Şəkinin gümüşbəndlik sahəsində şöhrət qazanmış sənətkarlarından Müftəli bəy və Şəkər bəy Vəlicanbəyovların, usta Əbdülrəhim Hacı Mahmud oğlunun düzəltdiyi zinət əşyaları Şəkinin hüdudlarından çox-çox uzaqlara yayılarmış. Qadınlar üçün saysız-hesabsız zinət əşyaları, o cümlədən qızıl bilərzik, belbağı, üzük, tənə, yaxa düymələri, həmayil, silsilə və qeyri-imarət növləri şəhərin zərgər dükanlarının başlıca məhsulları imiş. Maraqlıdır ki, 1886-cı ildə Şəkidə 31 zərgərxana fəaliyyət göstərib. Tədqiqatçı alim A.Mustafayevin yazdığına görə, şəkili zərgər Eyyub Mehdi oğlunun düzəltdiyi zərif zərgərlik məmulatı 1896-cı ildə Nijni-Novqorodda keçirilən Ümumrusiya sərgisinin yüksək mükafatına layiq görülüb.

Tədqiqatçı A.Mustafayev qeyd edir ki, Şəki dağlarında çağlayan buz bulaqların suyu vaxtilə çox uzaq məsafədən dulus ustalarının düzəltdikləri saxsı borular vasitəsilə gətirilib, içməli bulaq suyu şəhərin məhəllələrinə paylanmışdır. Yağ-pendir küpəsini, doşab bərnisini, tutma və qovurma küpələrini şəhər və kənd məişətindən çıxarmaq üçün əsrlər, qərinələr də kifayət etməmişdir. Boyaqxanalarda düzülüşü göz oxşayan boyaq küpələrinə layiqli əvəz hazırlamaq müasir sənaye istehsalında da asan deyil.

Professor Məhərrəm Qasımlı yazır ki, Şəki Azərbaycanın milli - tarixi varlığının elə bir möcüzəli gerçəkliyidir ki, onun hər zərrəsində həm özümüzü, həm də özgələri heyrətləndirən çeşid-çeşid sirr-hikmət bərqərardır. Burada təbiət möcüzəsi ilə sənət möcüzəsi baş-başadır. Şəkinin suyu, havası, axar-baxarı, bağ-bağatı Tanrının bir lütfüdürsə, könlü mehr-məhəbbətlə dolu, şirin-şəkər ləhcəli, fədakar adamları da bu lütfə layiq görülənlərdir.

Bu gün də qədim Şəkidən söz düşəndə, onun tarixini vərəqləyəndə gözlərimiz önündə insan ağlının və əlinin yaratdığı möcüzələr canlanır. Ən önəmli məsələ də odur ki, bu möcüzələri yaradanlar milliliyi, milli-mədəni irsimizin tələb və özəlliklərini heç vaxt yaddan çıxarmamışlar. Bu prinsip bütün sənət sahələrində, o cümlədən ipəkçilikdə də qorunub.

Görkəmli pedaqoq, folklorşünas, etnoqraf Rəşid bəy Əfəndizadənin tədqiqatlarından bəlli olur ki, Şəki dünyada ipəkçiliyin yarandığı məkanlardan biri sayılıb. Bu fikri şərtləndirən amillərdən biri də Şəkinin təbii-coğrafi şəraitinin ipəkçiliyin inkişafındakı əhəmiyyətidir. Məhz bu amil Şəkidə ipəkçilik təsərrüfatının, ipəkçilik sənayesinin inkişafında bənzərsiz rol oynayıb.

Şəkinin iqlimi, yerləşdiyi ərazi, torpaq örtüyü, bitki aləmi, insanların bu sənətə olan marağı və bacarığı ipəkçilik sənətinin formalaşmasına səbəb olmuşdur. Şəkidə ötən əsrin əvvəllərində ayrı - ayrı yerlərdə fəaliyyət göstərən kiçik ipəkçilik sexlərindən əlavə dövlət tabeliyində olan fabriklər də var idi. Həmin dövrlərdə hətta İtaliyadan dəzgahlar gətirilmişdi ki, bu da müəyyən mənada işin keyfiyyətinə öz təsirini göstərirdi.

Tarixi mənbələrə görə, 1927-ci il Nuxanın (Şəkinin) ipək sənayesi tarixində yeni mərhələnin başlanğıcı oldu. Həmin ilin iyun ayında vaxtilə Nuxanın ilk ipəkçilik müəssisəsinin - Alekseyev və Voronin qardaşlarının fabrikinin yerləşdiyi ərazidə Zaqafqaziyada ən böyük ipəkçilik kombinatının təməli qoyuldu. O dövrdən bir az əvvəl isə “Pravda” qəzeti sovet hökumətinin dünyada ən böyük ipək

kombinatının Nuxada tikilməsi barədə qərar qəbul etdiyini yazmışdı.

1931-ci ildə ipək kombinatının tikintisi başa çatdırıldı və bu hadisə yüksək qiymətləndirilərək respublikanın yüngül sənaye tarixində yeni səhifənin açılması, həmçinin Şəkinin üçüncü sənaye mərkəzinə çevriləcəyi amili kimi dəyərləndirildi.

Bir fakt da maraqlıdır ki, şəkili ipəkçilər 1941-1945-ci illərdə hərbi hava qüvvələri üçün paraşüt ipəyi, ipək saplaq və cəbhənin ehtiyaclarını ödəmək üçün digər məhsullar da istehsal etmişlər. Alman faşizminə qarşı vuruşlarda yaralanan əsgərlərin cərrahiyyə əməliyyatları zamanı tikiş qoymaq üçün Şəkidə istehsal olunan ipək saplardan istifadə olunmuşdur. Zəkəriyyə Əlizadə və Nazim İbrahimov "Şəki ipəyi uzaq karvan yollarında" kitabında yazırlar ki, 1942-ci ilin mart ayında Şəkidən cəbhəyə 200 kq, müharibənin sonuna qədər isə tonlarla ipək sap göndərilmişdir. Müharibədən sonra da Şəkidə istehsal olunan ipək məmulatlarının həcmi və çeşidi artdı. 202 rəngdə ipək parçanın istehsalı, SSRİ-nin 59 müəssisəsi ilə ticarət əlaqələri çox şeydən soraq verirdi.

İllər ötdü, zaman dəyişdi, yeni əsr gəldi. 1931-ci ildə açılışı böyük rezonansa səbəb olmuş Şəki İpək Kombinatının indi adı da dəyişib, fəaliyyət imkanları da. 1999-cu ildən kombinat "Şəki İpək" ASC kimi fəaliyyət göstərir. 1998-ci ildə Böyük İpək Yolunun bərpası Azərbaycanın siyasi, iqtisadi və sosial inkişafına əsaslı şəkildə təsir etdi. Təsadüfi deyildir ki, 2006-cı il avqustun 26-da beynəlxalq səviyyəli ipək bayramı da məhz qədim ipəkçilik diyarı Şəkidə keçirilmişdir. Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə yenidən fəaliyyətə başlayan "Şəki İpək" ASC-nin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Şəki ipəyinin əvvəlki şöhrətini qaytarması üçün hər cür şərait yaradılıb. Kombinata 2005-ci ildə 2,5 milyon manat həcmində daxili investisiya qoyulub. Bir faktı qətiyyətlə demək olar ki, Şəki ipəyi, o cümlədən burada istehsal olunan xalçalar, kəlağayılar, şərflər, xammal məmulatları yenə keyfiyyəti, rahatlığı, insana faydalılığı ilə seçilir. Gənc xalça

ustalarının toxuduğu "Qımı", "Gülüstan", "Şirvan" xalçaları milli koloritinə, rənglərin diriliyinə, estetik görünüşünə görə ilk baxışdan diqqəti çəkir.



İpəkçiliklə bağlı olan qədim sənət sahələrindən biri də təkəlduzluqdur. Əsrlər boyu ev peşəsi sayılıb və əsasən də qadın təxəyyülünün məhsulu olub. Tədqiqatçı A.Mustafayevin yazdığına görə, XIX əsrin əvvəllərində Şəkidə yəhər üzü bəzəyən 22, başmaq üzü bəzəyən 16, püştü üzü bəzəyən 50 təkəlduz dükanı olub.

Deyilənə görə, keçən əsrin ortalarında Azərbaycana səyahət etmiş Aleksandr Düma Şəkinin təkəlduz ustalarının bədii tikmə sahəsindəki məharətinə heyranlığını gizlədə bilməmişdir: “Mən 24 manata Şəkidə bədii tikməli 2 ədəd yəhər aldım. Belə yəhəri Fransada 200 franka da ala bilməzdim. Düzünü desəm, onu bizdə, heç bir qiymətə tapmaq mümkün deyil”.

Şəkidə onları hamı yaxşı tanıyır. Elə Şəkidən uzaqlara da soraqları yayılıb. Şəbəkəçilik sənəti daha çox onların - məşhur şəbəkə ustası Əşrəf Rəsulovun və onun oğlu, mahir şəbəkəçi Tofiq Rəsulovun adları ilə bağldır.

Əşrəf Rəsulov bu zərif sənəti bütün incəliklərinə qədər öyrənmiş, bir çox maraqlı şəbəkə işləri ilə şöhrət qazanmışdır.

Tədqiqatçı A.Mustafayevin qeyd etdiyi kimi, bu sehrli sənətə, sehrli naxışlara tükənməz məhəbbəti Əşrəf Yaqub oğlu Rəsulovun milli sənət ənənələrini davam etdirən görkəmli şəbəkə ustası kimi yetişməyində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Şəki Xan sarayının XVIII əsrdən qalma şəbəkələrinin bərpası məhz ona etibar edilmişdir. Bu sarayın şəbəkələrinin bərpası üzərində 10 ildən çox davam edən zəhməti Əşrəf Rəsulovu bir çox Ümumittifaq sərgilərinin fəxri diplomçusu və SSRİ Rəssamlar İttifaqının üzvü etmişdir.

Əşrəf Rəsulovun oğlu Tofiq Rəsulov bu gün ən mahir şəbəkə ustasıdır.

AMEA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı, sənətşünaslıq elmləri doktoru, professor Ertəkin Salamzadənin "Tofiq Rəsulov. Şəbəkə" kitabı bu ecazkar sənətin, o cümlədən Tofiq Rəsulovun yaradıcılıq sirlərinin sənətsevərlərə, oxuculara çatdırılmasında mühüm əhəmiyyətə malikdir.

Atası usta Əşrəfin "Şəbəkə" dərnəyindəki fəaliyyətini bu gün Tofiq müəllim uğurla davam etdirir. Dərnəkdə 15 gənc şəbəkəçilik sənətinin sirlərini öyrənir. Tofiq müəllim deyir ki, bizə öyrədiblər, biz də öyrədirik ki, bu sənət yaşasın.




***Şəkili şəbəkə ustasının əl işləri***

“Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı -2010” tədbirlərinin keçirilməsi ilə bağlı yaradılmış təşkilat komitəsinin sədri, Şəki Şəhər İcra Hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini, tarix elmləri namizədi Zərinə Cavadova görüləcək işlərdən söz açdı. Bildirdi ki, bir çox tədbirlərin həyata keçirilməsi ilə yanaşı, investisiya və texniki proqram layihələri çərçivəsində Aşağı Karvansarayın, Şəkixanovların evinin, “Gələrsən-görərsən” qalasının bərpası, Nakam adına şəhər kitabxanasında təmir-bərpa işləri, M.F.Axundovun və R. Əfəndiyevin ev muzeyinin əsaslı təmiri, Şəki şəhər M.F.Axundov adına Mərkəzi Mədəniyyət Evinin təmiri, həmçinin R.Əfəndiyev adına Tarix-Diyarşünaslıq Muzeyi və dövlət rəsm qalereyası üçün binaların tikintisi nəzərdə tutulub.

Şəkidə zarafatla deyirlər ki, Şəkiyə ya gəl, ya da gəlmə! Yəni, gələndə elə gəl ki, Şəkini Şəki kimi görə biləsən. Şəkini görmək, tanımaq isə keçmişə ən maraqlı səyahətə bərabərdir...




Azərbaycanın axar-baxarlı bölgələrindən olan İsmayıllı inzibati rayon kimi 1931-ci ilin noyabr ayında təşkil olunub. Sahəsi 2074 kvadratkilometr, əhalisi 81 min nəfərə yaxındır. Tərkibinə bir

şəhər, iki şəhərtipli qəsəbə və 108 kənd daxildir. Rayon mərkəzi İsmayıllı 14 yanvar 1967-ci ildə şəhər statusu alıb.

Artıq neçə illərdir ki, İsmayıllı rayonu da uğurlu inkişaf dövrünü yaşayır. Ölkə Prezidenti İlham Əliyev 2009-cu ilin oktyabr ayında rayona səfəri zamanı görülən işlərlə bağlı razılığını bildirmişdir. Bir faktı qeyd etmək kifayətdir ki, son beş-altı ildə İsmayıllıda iqtisadiyyat üç dəfədən çox artıb. Bu isə mövcud imkanlardan səmərəli istifadə sayəsində mümkün olub.

Böyük Qafqazın cənub ətəklərində yerləşən İsmayıllı ərazisində tariximizin qədim dövrlərinin izləri qalmaqdadır. Rayonun ərazisində olan yurd yerlərindən tapılan daş alətlər-daş çapacaqlar, bıçaqlar, nizə ucluqları, ox ucluqları, məişət əşyaları bu ərazidə hələ daş dövründə insanların yaşadıqlarını sübut edir. Bu rayonda əhali ata-babaları kimi indi də sənətkarlıqla məşğul olurlar.

Lahıc bütün orta əsrlər boyu Azərbaycanın mühüm sənətkarlıq mərkəzi olub. Lahıc ustalarının sənətkarlıq məhsulları Azərbaycanın sərhədlərindən çox uzaqlarda da tanınıb. Burada inkişaf etmiş sənətkarlıq sahələrinin önündə misgərlik dururdu. Bəlkə də dünyanın heç bir guşəsində misgərlik Lahıcdakı qədər inkişaf etməyib. Varlı tacirlər Bakıdan, Tiflisdən, Gədəbəy, Borçalı və Zəngəzurun mis mədənlərindən xam mis alaraq dəvə karvanı ilə Lahıca yola salırdılar. Lahıc sənətkarlığının hazırladıqları məhsulları almaq üçün tacirlər arasında güclü rəqabət gedirdi. Xarici diyarlardan - Hələbdən, İstanbuldan, Avropa şəhərlərindən də Lahıca mis gətirilirdi. Sənətkarlar aldıqları misi əridir, onu saflaşdırır, xüsusi qəliblərə tökürdülər. Misin yumşaq olması üçün ona müxtəlif qarışıqlar əlavə edirdilər. Misgərlik emalatxanaları sənətkarlıq baxımından mükəmməl olurdu. Orada sənətkarlıq məhsullarının hazırlanması üçün lazımi avadanlıqların, alətlərin keyfiyyəti ən yüksək səviyyədə idi. Alətlərin demək olar ki, hamısı Lahıcda hazırlanırdı. Mis qabları qalayçılar qalayla ağardırdılar. Qalayçılıq da ayrıca peşə idi. XVII-XVIII əsrlərdə mis qablara tələbat çox olduğundan onların qiyməti baha olub. Lakin XIX əsrdə fabrik-zavodlarda müxtəlif qabların istehsalı genişləndiyindən mis

qablara tələbat azalmış, onların qiymətləri aşağı düşmüşdü. Sonrakı dövrlərdə Lahıcda misgərlik tənəzzül etsə də, tamamilə sıradan çıxmadı. Burada həmin sənəti yaşadan sənətkarlar indi də hörmətə layiqdirlər. Lahıcda dəmirçilik də inkişaf etmiş sənət sahələrindən olub.



Dəmirçilər əsasən təsərrüfat işləri ilə bağlı alətlər hazırlayır, iş heyvanları üçün nal, mıx hazırlayırdılar. Lahıc dəmirçilərinin hazırladığı alətlər öz keyfiyyəti ilə digər yerlərdə hazırlanan alətlərdən fərqlənirdi. Dəmirçilik sənəti də hazırda Lahıcda yaşadılır. İsmayıllının Basqal kəndi isə həmişə kəlağayısı ilə məşhur olub. Orta əsrlərdən Basqalda hər evdə kəlağayı hazırlamaq üçün dəzgahlar qurulurmuş. Basqal kiçik kənd olsa da, qədim ticarət mərkəzi olub. Burada hamı, uşaqdan böyüyə qədər bütün ailə kəlağayının hazırlanmasında iştirak edirdi. Biri toxuyur, biri boyayır, biri ipək sarıyırdı. Basqal kəlağayısı 1870-ci ildə Londondakı sərgidə gümüş medal qazanıb. İndinin özündə də bu kənddə nişan aparanda xonçaya birinci kəlağayı qoyurlar.




Göygöl şəhərinə daxil olanda ilk diqqəti çəkən eyni cərgədə düzülən balaca, təmirli evlər olur. Qırmızı kirəmitli, çöl divarı, balkonu taxta ilə bərpa edilən evlərin çoxu vaxtilə burada yaşayan almanlar tərəfindən tikilib. Şəhərin əsaslı şəkildə yenidən qurulan, təmir və bərpa olunan küçə və prospektlərini gəzdikcə, yeni tikintilərlə tanış olduqca, milli arxitektura elementlərini seyr etdikcə park və xiyabanlarda dolaşdıqca bu füsunkar diyarın adının dillərdə dastan olmasının səbəbini anlayırsan.

Göygöl rayonunun Mədəniyyət və Turizm Nazirliyinin “Xalq Yaradıcılığı Paytaxtları” proqramı çərçivəsində “Azərbaycanın sənətkarlıq paytaxtı” elan edilməsi rayonda müxtəlif sənətkarlıq növlərinin inkişafı və təbliği ilə bağlıdır. Göygöl rayonunda 80-dən çox sənətkar çalışır. Mədəniyyət Evində təşkil edilən sərgidə nümayiş etdirilən əl işləri arasında yaşlı sənətkarların işləri ilə yanaşı orta məktəb şagirdlərinin də hazırladığı tikmə, toxuculuq, rəssamlıq və s. əl işləri maraq doğurur. Hiss olunur ki, rayonun “Sənətkarlıq paytaxtı” elan olunması sənətkarlarda ruh yüksəkliyi yaradıb. Onlar öz işlərinə qarşı sonsuz maraq hiss ediblər. Göygölün “Azərbaycanın sənətkarlıq paytaxtı” elan edilməsi ilə əlaqədar olaraq il boyu rayonda mədəniyyət, incəsənət və sənətkarlıq sahəsində müxtəlif yerli və beynəlxalq tədbirlər keçirilib. Əl işlərindən ibarət sərgilər, festivallar, konfranslar,

konsert proqramları təşkil edilib. “Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilən "Xalq Yaradıcılığı Paytaxtları" proqramı çərçivəsində Göygölün 2013-cü ildə respublikanın "Sənətkarlıq paytaxtı" elan edilməsi də məhz mədəni irsin qorunmasına, sənətkarlığın daha da inkişafına və təbliğinə yönəldilmişdir.

Göygöl rayonunda tarixi əsrlərlə ölçülən abidələr var. Çaykənd kəndində yaşayış evi, Ağ körpü (12-ci əsr), Qabriel kilsəsi, Türbə (12-ci əsr), Üç tağlı körpü (Gəncə çayı üzərində), İki tağlı körpü, Şərabçılıq zavodunun zirzəmisi, Anahidməbədi, Birtağlı körpü, Qala (12-ci əsr) və s. kimi 31 yerli əhəmiyyətli tarixi abidə var. Abidələr 12-16-cı əsrləri əhatə edir. Bunlardan 8-i kurqan, nekropol və açıq düşərgə, digərləri isə bina və körpülərdir..

1854-cü ildə tikilən Lüteran kilsəsi isə hazırda Tarix Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir. Kilsə almanlar tərəfindən tikilib. 1982-ci ildən isə rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir. Muzeyin 2000-dən artıq eksponatı var. Muzeyin ekspozisiyası qədim zamanlardan indiyədək Göygöl rayonunun tarixini və milli mentalitetini əks etdirir. Muzeyin ekspozisiyası 6 salondan ibarətdir. Buraya «Göygölün təbiəti. Göygöl qədim dövrdə», «Göygöl orta əsrlərdə», «Göygöl yeni dövrdə», «Hərbi vətənpərvərlik tərbiyəsi», «Azərbaycanda demokratik hərəkat. Kommunist rejiminin iflası», «Azərbaycan son 10 ildə» daxildir. Muzeyin fonduna 456 ədəd məişət əşyası, 190 ədəd foto şəkil, 236 ədəd sənəd, 85 ədəd digər eksponatlar daxildir. Balçılı kəndinin sakinlərinin köməyi ilə 500-ə qədər tarixi əşyalar toplanıb, həmin əşyalar muzey eksponatı kimi inventarlaşdırılıb. Muzeydə müxtəlif tədbirlərlə bağlı sərgilər, foto-stendlər, vaxtaşırı xarici qonaqlar üçün musiqili tədbirlər təşkil olunur. Muzey binası 2008-ci ildə bərpa edilib.

1938-ci ildə qəsəbə Xanlar adlandırılıb, 2008-ci ildə Milli Məclis Xanların Göygöl adlandırılması barədə qərar qəbul edib.

Göygöl şəhərinin sənətkarlıq paytaxtı elan edilməsi də ölkədə xalq sənətkarlığına olan qayğı və diqqətin bəhrəsidir. Belə

tədbirlərdən məqsəd Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, dəstəklənməsi, milli adət-ənənələrin tədqiq və təbliğinə təkan verməkdir.



"Sənətkarlıq paytaxtı" Göygöldə xalçaçılıq, çəllək düzəltmə, səbət toxuma, tikmə, dəmirçilik və digər sənətkarlıq növlərinin tarixi ənənəsi var. İl ərzində bölgədə sənətkarlığın inkişafına xüsusi diqqət yetirilmişdir.




Bu məkanın tarixi haqqında qədim alban və ərəb mənbələrində, Avropanın müxtəlif coğrafiyaşünaslarının əsərlərində bəhs olunur. XI əsrdə Azərbaycan hakimi Anuşirəvanın tikdirdiyi qalanın adı “Bade-Firuzqubat” idi, XII əsrə aid ərəb mənbələrində Quba ″Kuba” kimi göstərilirdi, XIII əsrdə ərəb alimi Həməvinin coğrafiya lüğətində Azərbaycan şəhərləri arasında “Kubba” da olub, XVI əsrin səfəvi qaynaqlarında isə Quba “Qübbə” kimi verilmişdir. Bəzi mənbələrdə bu diyar ərazidən axan Qudyalçayın adı ilə bağlı olub Quda adlanır. Quba şəhərinin ilk təməl daşı XIV əsrdə qoyulub. XVIII əsrin ortalarında Quba xanlığı yaradılıb, onun mərkəzi əvvəl Xudat, sonra isə Quba şəhəri olub.

Quba tarixən həm də özünün sənətkarları və gözəl sənət nümunələri ilə tanınıb. Ötən əsrin 60-cı illərində Utuq kəndinin ətrafında tapılmış pul sikkələri XII-XIII əsrlərdə zəbt edilib. Bu pullar Şirvanşahların hakimiyyətdə olduğu dövrə aiddir. Utuqda XIX əsrə aid bir neçə bina, o cümlədən özünəməxsus arxitekturaya və bəzəyə malik olan məscid və bir neçə yaşayış evi də bu qədim məkanın peşəkar sənətkarlarından xəbər verir. Bölgəyə səfər edən turistlərin xüsusi marağına səbəb olan Xınalıq kəndində atəşpərəstlər məbədi, Ağbil kəndindəki səkkizguşəli məqbərə, yerli əhali arasında müqəddəs sayılan Pirbənövşə ziyarətgahı da bu qəbildəndir.

Özünəməxsus xalçaçılıq məktəbi ilə tanınan Quba mədəniyyətimizə zaman-zaman öz töhfələrini bəxş edib. Xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Qubada toxunan «Çiçi», «Ağgül» və «Pirəbədil» xalçaları Azərbaycanın ən gözəl xalçalarındandır. 1712-ci ildə toxunmuş «Qollu Çiçi» xalçası hazırda Nyu-Yorkdakı «Metropoliten» muzeyində saxlanılır.



***«Qollu Çiçi» xalçası***




Azərbaycanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Abşeron diyarı xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən qədim abidələr, mağaralar, yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir.

Güzdək qəsəbəsi ərazisində XIX əsrə aid dörd ədəd “Dəvəlik” adlanan təsərrüfat tikilisi mövcuddur. Teymur Həmidova, Məlik və Məmməd Rzayevlərə məxsus həmin tikililər təsərrüfat məqsədilə istifadə olunmasa da qorunub saxlanılır.

XIX əsrdə Görədildə həmin kəndin sakini Hacı Qurbanın tikdirdiyi Əbdürrəhman məscidi, Digahlı Mir Qohum ağanın tikdirdiyi məscid, XVIII əsrdə Xırdalan kənd icması tərəfindən tikilmiş məscid, Məmmədlidə XVIII əsrdə Qaradağlılar nəsli tərəfindən inşa edilmiş məscid, XIX əsrdə Məmmədli kəndində Şahsevənlər tərəfindən tikilmiş məscid, Novxanıda XIX əsrdə Hacı Səfəralının ibadət və dini tədris məqsədilə tikilmiş məscid-mədrəsə, həmin kənddə XVII əsrdə Şahsultan Hüseyn adlı şəxs tərəfindən tikilmiş məscid, Fatmayıda XIX əsrdə tikilərək kənd ağsaqqalı Əlbattinin adı verilmiş məscid, XVII əsrdə tikilmiş Hacı Heybət məscidi, XVIII əsrdə tikilmiş Salam məscidi, Saray kəndindəki XIX əsrə aid Hacı Bədəl məscidi mövcuddur ki, bunların da əksəriyyəti son onillikdə bərpa olunaraq dini mərasimlərin keçirilməsinə xidmət edir.

Rayon ərazisində orta əsrlər üçün mədəni həyat tərzinin göstəricisi olan ictimai hamamların bir neçəsi qorunub saxlanılmışdır. O cümlədən, XIX əsrdə Qobuda Hacı Kazım tərəfindən, Xırdalanda Məşədi İmam Baxış tərəfindən inşa edilmiş hamamların tikililəri qalmaqdadır.

Qədim Abşeron kəndlərində su ilə təminatda çox mühüm rol oynamış övdanlar Güzdək və Xırdalan yaşayış məntəqələrinin ərazisində indiyədək qalmaqdadır.

Rayonun ərazisində digər tarixi abidələr, o cümlədən, Fatmayıda, Digahda, Masazırda, Hökməlidə və Sarayda XIII-XVIII əsrlərə aid türbələrin və s. qalıqları mövcuddur.



# Ədəbiyyat

## Kitab


**1968**

**1.Metal və xalq sənətkarlığı** /H. Quliyev, N. Tağızadə**.-**Bakı: Azərnəşr, 1968.-106 s. + [9 v.] şək.

**1977**

**2.Azərbaycanda ipəkçilik** /N. H. Bədəlov; [red. E. Əliyev].-Bakı: Azərnəşr, 1977. -94, [2] s.: şək., cədv.

**1989**

**3.İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq:** IV-VIII əsrlər /A. Ş. Orucov; red. C. Ə. Xəlilov; Azərb. SSR EA Tarix İn-tu Arxelogiya və Etnoqrafiya Sektoru Bakı: Elm, 1989.-72 s.: xəritə, şək.

**2008**

**4.Şəki ipəyi uzaq karvan yollarında** /Z.Əlizadə, N.İbrahimov; [elmi red. M. Qasımlı; dil red. Ə. Tahirzadə; rəssamlar. A. Yusifoğlu, T. Həmidli]; Azərb. Milli EA, Şəki Regional Mərkəzi Bakı: Nafta-Press, 2008.-252 s.: port. fotoşək.,

**2012**

**5.İpəkçiliyin əsasları:** dərslik /A. K. Seyidov, B. H. Abbasov ; rəyçi V. Novruzov [və b.]; red. A.Seyidov.-Bakı: "Müəllim" nəşriyyatı, 2012. -164, [2] s.

**2016**

**6.Azərbaycanın orta əsr şəhərləri:** (IX-XIII əsrin əvvəlləri) /T.Dostiyev; elmi red. Q. S. İsmayılzadə; Azərbaycan Resp. Təhsil Nazirliyi, Bakı Döv. Un-ti.-Bakı: Elm və təhsil, 2016.-199, [1] s.

## Dövrü mətbuat

**2010**

**7.Azərbaycan şəhərləri əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2010. -25 fevral.- S.2.

**8.Şəki - Azərbaycanın sənətkarlıq paytaxtı-2010 ilinin təntənəli açılışı olmuşdur** //Azərbaycan.-2010. - 6 aprel.- S. 2.

**9.Şəki samovarının 3700 yaşı var** //Mədəniyyət.-2010.- 22 oktyabr.- S. 8.

**10. Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı"dır:** "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən tədbirlər keçirilir /Zümrüd //Səs.-2010. - 28 sentyabr. - S. 12.

**11.Şəki şəhəri Azərbaycanın sənətkarlıq paytaxtı elan olunub /**Zümrüd //Səs.-2010.- 8 aprel.- S.12.

**12.Şəki sənətkarlarının əl işləri paytaxt sərgisində** /Mehparə //Mədəniyyət.-2010.- 30 aprel.- S. 4.

**13.Şəkidə hər üç ailədən biri sənətkardır** /Nigar //Palitra.-2010.- 4 may. - S.12.

**14.Sənətkarlıq Paytaxtı – 2010 ili çərçivəsində Şəkidə növbəti tədbir keçirilmişdir** //Xalq qəzeti.-2010.- 20 may.- S. 2.

**15.Sənətkarlıq Paytaxtı – 2010 ili çərçivəsində Şəkidə növbəti tədbir keçirilmişdir** //Azərbaycan.-2010.- 20 may.- S. 5.

**16.Sənətkarlıq paytaxtı Şəki** /T.Nəzərli //Azərbaycan.-2010.- 18 aprel. - S. 5.

**17.Xalq Yaradıcılığı Paytaxtları proqramına start verildi:** "Gəncə - Azərbaycanın Əfsanələr Paytaxtı", "Qazax - Folklor Paytaxtı", "Şəki isə Sənətkarlıq Paytaxtı" elan olundu /T. Məhərrəmova //Kaspi.-2010. - 25 fevral.- S.11.

**2011**

**18.Azərbaycanın əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2011.- 4 mart.- S. 3.

**19.Azərbaycanın sənətkarlıq paytaxtı:** İsmayıllı /Mehparə //Mədəniyyət.-2011.- 19 avqust.- S. 8.

**20.Deputat Azərbaycanın 2011-ci il üçün seçilən "paytaxtında" olub** //Üç nöqtə.-2011.- 9 aprel. - S. 7.

**21.İpək kimi İsmayıllı:** Mədəniyyət və Turizm Nazirliyinin "Sənətkarlıq Paytaxtı"na təşkil etdiyi infoturdan qeydlər /E.Cəbrayıloğlu //Ədalət.-2011.- 26 noyabr.- S. 21.

**22.İsmayıllı - Azərbaycanın Sənətkarlıq Paytaxtı - 2011** /Zümrüd //Səs.-2011.- 3 noyabr.- S. 12.

**23.İsmayıllı Azərbaycanın Sənətkarlıq Paytaxtı elan olunub** /C.Səlimqızı //Mərkəz.-2011.- 24 noyabr.- S.15.

**24.İsmayıllı sənətkarlıq paytaxtıdır** /R.Amanov //Respublika.-2011.- 3 avqust.- S. 2.

**25.İsmayıllı sənətkarlıq paytaxtıdır** /T.Nəzərli //Azərbaycan.-2011.- 12 aprel.- S. 9.

**26.İsmayıllı: Azərbaycanın Sənətkarlıq Paytaxtı** /A.Şirinova //İki sahil.-2011.- 24 noyabr.- S.10.

**27.İsmayıllıda "sənətkarlar bayramı"** /R.İsayeva //Mədəniyyə.-2011.- 7 sentyabr.- S. 8-9.

**28.Şabran, Lənkəran və İsmayıllı: 2011-ci ildə Azərbaycanın əfsanələr, folklor və sənətkarlıq "paytaxt"ları elan olundu** //Mədəniyyət.-2011.- 2 fevral.- S. 3.

**29.Sənətkarlıq paytaxtı – İsmayıllı** /A.Lətifov //525-ci qəzet.-2011.- 25 noyabr.- S.6.

**30.Sənətkarlıq Paytaxtı İsmayıllıda infotur keçirildi** /T.Nəzərli //Azərbaycan.-2011.- 26 noyabr.- S. 6.

**31.Sənətkarlıq paytaxtı İsmayıllıda tədbirlər keçirilib** /T.Nəzərli //Azərbaycan.-2011.-10 sentyabr.- S.5.

**32.Sənətkarlıq paytaxtında bir gün:** İsmayıllı şəhərinə infotur zəngin təəssüratla yadda qaldı /C.Zərbəliyev //Mədəniyyət.-2011.- 25 noyabr.- S. 8.

**33.Xalq yaradıcılığı paytaxtları:** Şabran, İsmayıllı, Lənkəran /A.Sultanova //Mövqe.-2011.- 15 aprel.- S. 4.

## 2012

**34.Azərbaycanın xalq yaradıcılığı paytaxtlarının təqdimatı olmuşdur** //Azərbaycan.-2012.- 16 mart.- S. 5.

**35.Quba Azərbaycanın sənətkarlıq paytaxtı** /R.Ramazanlı //Mədəni həyat.-2012.- № 5.- S. 97-100.

**36.Quba qədim sənətkarlıq mərkəzidir** /M.Ağayev //Respublika.-2012.- 6 aprel.- S. 5.

**37.Qubada infotur zəngin təəssüratlarla yadda qaldı** /M.Nərimanoğlu //Azərbaycan.-2012.- 19 dekabr.- S.7.

**38.Qubanın ağ alması, yemədik bağ alması...:** Sənətkarlıq paytaxtına infotur /S.Elsevər //Ekspress.-2012.-8-10 dekabr.- S.19.

**39.Sənətkarlıq Paytaxtının təqdimatı** /Ceyhun //Mədəniyyət.-2012.- 13 iyun.- S. 4.

## 2013

**40.Bir yanı Şahdağ, bir yanı Xəzər: "Sənətkarlıq paytaxtı" - Quba** /C.Zərbəliyev//Mədəniyyət.-2013.- 15 mart.- S. 10-11.

**41.Fəal gənclər bütün tədbirlərimizdə iştirak edir:** /Ş.Hümbətova; Müsahibəni apardı: A.Miriyev //Palitra.-2013.- 3 may.- S.11.

**42.Folklor və Sənətkarlıq paytaxtlarımıza səfərin unudulmaz təəssüratı** /R.Əhməd //525-ci qəzet.-2013.- 25 dekabr.- S. 4.

**43.Göygöl - abidələrlə zəngin məkan: [Mətn] "Sənətkarlıq paytaxtı"nda bir gün** /F.Abdullayeva //Mədəniyyət.-2013.- 25 dekabr.- S. 9.

**44.İlin sənətkarlıq paytaxtı - Göygöl** /Ə.İsayev //Azərbaycan.-2013.- 25 dekabr.- S.7.

**45.Sənətkarlıq paytaxtı- Göygöl:** /Ş.Hümbətova; Müsahibəni apardı: A.Miriyev//Palitra.-2013.- 2 may.- S.11.

**46.Sənətkarlıq Paytaxtında dəyirmi masa:** /A.Muradova //Mədəniyyət.-2013.- 6 noyabr.- S. 7.

**47.Şərəfli missiya** /P. İlqaroğlu //Mədəni həyat.-2013.- № 5.- S.43.

**48.Sonuncu alman:** Rəşid Behbudovun mahnılarını əzbər bilən Kileinin Göygöldəki evi muzey olacaq /E.Cəbrayıloğlu //Ədalət.-2013.- 28 dekabr.- S.12.

**49.Tanıdığımız və tanımadığımız Göygöl** /B.Məcidov //Zaman.-2013.- 26 dekabr.- S.7.

**50.Unudulmaqda olan qalayçılıq:** Qalayçılar şikayətlənirlər: "Bu sənətə dövlət qayğısı yoxdur" /İ.Cəlil; G. Tağıyeva //Ekspress.-2013.- 10 yanvar.- S. 14.

**51.Xalça sənətinin inkişafı sahəsində yeni layihələr hazırlanacaq:** Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin nümayəndələri Şəkidə olub /Anar //Palitra.-2013.- 29 dekabr.- S. 15.

**2014**

**52.Abşeron 2014-cü ilin "Sənətkarlıq paytaxtı" kimi:** /S.Abdullayeva //525-ci qəzet.-2014.- 12 aprel.- S.17; Səs.-12 aprel.- S.12.

**53.Abşeron: Azərbaycanın sənətkarlıq paytaxtı-2014** /Z.Cavadov //Respublika.-2014.- 16 aprel.- S.6.

**54.Abşeronun güllər aləmi:** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 13.

**55.Bizdə şeir də var, sənət də vardır:** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 13.

**56.Bölgələr "paytaxt" olanda...: "Xalq Yaradıcılığı Paytaxtları" proqramı şəhər və rayonlarımızın mədəni inkişafına zənginlik gətirdi** //Mədəniyyət.-2014.- 26 dekabr. - S.2.

**57.Əsrlərin və nəsillərin mirası:** Minilliklərin yaddaşından süzülüb gələn xalq yaradıcılığı irsimizin gələcək nəsillərə çatdırılması üzərimizə düşən tarixi borcdur /Ə.Qarayev //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 3.

**58.Layihə istedadların, xalq sənətkarlarının üzə çıxarılmasına şərait yaradır:** "Sənətkarlıq paytaxtı"nın təqdimatı //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 13.

**59.Qafqaz - qonaqpərvərlik vətəni:** Abşeron aşıqları Çeçenistanda çıxış ediblər //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 15.

**60.Sənətkarlıq paytaxtında ədəbiyyat axşamı**: //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 14.

**61.Sənətkarlıq paytaxtında sənət dolu bir il:** Abşeron rayonunda rəngarəng tədbirlər keçirilib //Mədəniyyət.-2014.- 26 dekabr. - S.12.

**62.Sənətkarlıq paytaxtının təqdimatı keçirildi** /F.Abdullayeva //Mədəniyyət.-2014.- 11 aprel.- S. 4.

**63.Sənətkarlıq paytaxtının Türkiyədə təqdimatı** /L.Azəri //Mədəniyyət.-2014.- 4 aprel.- S. 11.

**64.Sənətkarlıq paytaxtının Türkiyədə təqdimatı:** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 15.

**65.Xalq yaradıcılığı paytaxtlarında qeyri-maddi mədəni irsimiz təbliğ olunur:** Qəbələnin "Azərbaycanın əfsanələr paytaxtı", Balakənin "Azərbaycanın folklor paytaxtı" və Abşeronun "Azərbaycanın sənətkarlıq paytaxtı" elan edilməsi ilə bağlı təqdimat olub /A.Miriyev //Palitra.-2014.- 5 mart.- S.13.

**66.Yüksək sənət və memarlıq nümunələri:** Bu il Abşeron rayonunda yeni mədəniyyət və istirahət məkanları istifadəyə verilib //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 14.

## 2015

**67.2015-ci ilin "Xalq yaradıcılığı paytaxtları":** Şamaxı şəhəri "Ədəbiyyat paytaxtı", Qax şəhəri "Milli mətbəx paytaxtı" seçilib //Mədəniyyət.-2015.- 27 fevral. - S. 2.

**68.Bölgələrdən paytaxta: Bakıda "Xalq yaradıcılığı paytaxtları"nın mədəni və turizm potensialına həsr olunmuş tədbirlər**//Mədəniyyət.-2015.- 6 fevral. - S.2.

**69.Kəlağayılar:** Azərbaycan xalqının mədəni tarixini yaşadan sənətkarlıq nümunələrindən biri kimi UNESCO-nun qeyri-maddi

mədəni irs siyahısına daxil edilib /M.Nərimanoğlu //Azərbaycan .- 2015.- 2 fevral.- S.7.

**70.Minilliklərin mənəvi və mədəni yadigarları qorunur:** 2014-cü ildə Qəbələ "Əfsanələr paytaxtı", Balakən "Folklor paytaxtı", Abşeron isə "Sənətkarlıq paytaxtı" kimi tanındı /M.Nərimanoğlu //Azərbaycan.-2015.- 1 fevral.- S.6.

**71.Təkəlduzlar - bədii tikiş sənətimizin örnəkləri..**. /İ.Sarıyeva //Bakı xəbər.-2015.- 6-9 mart.- S.11.

**72.Yeni Xalq Yaradıcılığı Paytaxtları elan edilib:** /S.Abdullayeva //525-ci qəzet.-2015.- 27 fevral. - S. 7.

### 2016

**73.Ölkəmizin "Mədəniyyət paytaxtları"nın coğrafiyası genişlənir** /M.Nərimanoğlu //Azərbaycan.-2016.- 24 sentyabr.- S.11.

## Dissertasiyalar

### 1993

**74.Azərbaycanda sənətkarlıq** (tarixi-etnoqrafik tədqiqat): tarix e. d-ru a.dər.a.üçün təq. ed. dis /A.N.Mustafayev; M.Ə. Rəsulzadə adına Bakı Dövlət Un-ti .-Bakı: 1993.-406 s.

### 2004

**75.Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq:** tarix e. d-ru al. dər. a. üçün təq. ed. dis /C.M.Mustafayev; AMEA A.A. Bakıxanov ad. Tarix İn-tu .-Bakı: 2004.-340 s.

### 2008

**76.Şəki folklor mühiti:** filol. e. n. a. dər. al. üçün təq. ol. dis.: /L. V. Süleymanova; AMEA, Folklor İn-tu. Bakı: 2008.-160 s.

**77.XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakıda sənətkarlıq və onun müasir vəziyyəti** (tarixi-etnoqrafik tədqiqat):

tarix e. n. al. dər. a. üçün təq. ol. dis /M.İ.Xəlilova; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.-Bakı: 2008.-186 s.

## İnternet resursları:

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az
www. sia.az

# Azərbaycanın sənətkarlıq paytaxtları

(Şəki, İsmayıllı, Quba, Göygöl, Abşeron)
Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Komputer yığımı
və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 1
Çapa imzalanmışdır: 13.12.2017
Tirajı:100
Pulsuz.